**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ARTUR KLARKIN ELMİ-FANTASTİK ƏSƏRLƏRİNDƏ UTOPİYA VƏ DİSTOPİYA MƏSƏLƏLƏRİ

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat)

Elm sahəsi: Filologiya

İddiaçı: **Nigar Ağa qızı Ağayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, dosent<br>**Həmidə Əhməd qızı Əliyeva** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, dosent<br>**Nigar Vəliş qızı İsgəndərova** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Səadət Xalid qızı Abdurəhmanova** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Xumar Vəliyəddin qızı Abdullayeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası.

| | | |
|---|---|---|
| Dissertasiya şurasının sədri: | __________ | filologiya elmləri doktoru, professor<br>**Azad Yəhya oğlu Məmmədov** |
| Dissertasiya şurasının elmi katibi: | __________ | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İradə Nadir qızı Sərdarova** |
| Elmi seminarın sədri: | __________ | filologiya elmləri doktoru, professor<br>**Şahin Həmid oğlu Xəlilli** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Daha yaxşı dünya və rahat gələcək barədə düşüncələr bəşəriyyəti daima narahat edən əbədi mövzulardandır. Platonun dialoq konsepsiyası özünün bədii formasını Tomas Morun utopiyasında tapdığı dövrdən günümüzə qədər yol gəlmiş və müasir dünyanın problemləri ilə çulğalaşmışdır. Ədəbiyyatda öz əksini tapan utopiyanın xarakterik xüsusiyyəti onun ənənəvi ideyası ilə bağlılığı və pozitiv xüsusiyyəti ilə seçilməsidir. XX əsrdə baş verən iki dünya müharibəsi, dünyanı bürüyən iqtisadi və siyasi böhran, texniki nailiyyətlərin insana qarşı yönəlməsi, bəşəriyyəti öz əhatə dairəsinə alan absurd və mənasız ölüm təhlükəsi, şəxsiyyətin həm fiziki, həm də mənən tükənməsi utopiya ənənəsini neqativ utopiyaya ötürdü. Elə bununla bağlı XX əsr bəzən antiutopiya əsri adlanır[1].

Utopiya ideyasının tükənməsi ortaya çıxanda cəmiyyət elmə güvənmək imkanı əldə etdi və futuroloji təcrübələrdən yararlanaraq yeni durumuna elmi mövqedən cavab verməyə can atdı. Elmi fantastikanın bir ədəbi janr kimi düşüncə formasına daxil edilməsi onun digər oxşar formalara – utopiya, antiutopiya/distopiyaya yaxınlaşdırdı. Utopiya gələcəyi təsvir edir, yaranan idealları hədəfləyir, amma məlumdur ki, uzaq gələcəyi rasional olaraq ölçmək, dəqiq metodlarla öyrənmək çətinlik yaradır. Gələcək haqqında düşünərkən fərziyyələrə, metaforik düşüncələrə və utopik xəyallara dalırıq. Fantast-yazıçılar isə bu problemi asanlıqla həll edə bildilər.

Yaradıcılığı XX əsrin sonları və XXI əsrin əvvəllərinə təsadüf edən və utopik xəyalların mühəndisi adlanan Artur Çarlz Klarkın (Arthur Charles Clarke, 1917-2008) əsərləri ingilis ədəbiyyatında, eləcə də Qərb ədəbiyyatında elmi fantastika janrında yazılan ən gözəl nümunələrdəndir. Dahiyanə öncəgörmələriylə "Kosmik əsrin peyğəmbəri"[2] elan edilən A.Klarkın elmi fantastika ədəbiyyatında müstəsna xidmətləri ilə yanaşı o da qeyd edilməlidir ki, onun utopik

---

[1] Социальная философия: сл. / Сост. ред.: В.Е.Кемеров, Т.Х.Керимов. – Москва: Академический проект, – 2003. – 260 с.

[2] Arthur, C.Clarke. Prophet of the Space Age: [Electronic resource]. URL: https://ntrs.nasa.gov/api/ citations/20180006504/downloads/20180006504.pdf

görüşlərinin bir çoxu reallaşmış, elmi-texniki tərəqqinin yeni nailiyyətlərində öz sözünü demişdir.

A.Klark ABŞ hökuməti tərəfindən yaradılan kosmik uçuşun və planetar sistemlərin inkişafı ilə bağlı araşdırmalarda iştirak etmiş, eyni zamanda da bir fantast-yazıçı kimi uzaq gələcəyə dair mistik düşüncələrini və bəşəriyyətin daha yüksək inkişafı ilə bağlı görüşlərini bədii ədəbiyyata köçürmüşdür. "Kosmik əsrin peyğəmbəri" ümid edir və inanırdı ki, bilik axtarışlarına və texniki tərəqqinin bütün sirlərinə yiyələnən müasir insan yeni dünya yaradacaq və insanı ən ali irq kimi gələcək nəsillərə təqdim edəcək. Bəşəriyyətin sonrakı dövrünü görə biləcək insan ağlının gücü ilə yad planetlərə səfər edəcək, yeni sivilizasiyaların əsasını qoyacaq, beyinin postbioloji inkişafına çatacaqdır.

Bu baxımdan A.Klarkın elmi fantastika janrında yazdığı əsərləri nəinki müasirlərinə, həm də bəşəriyyətə ünvanlandığı üçün bütün dövrlərdə aktualdır. Elmi fantastikanın aktuallığı onun təkcə insanlara ünvanlanması ilə əlaqəli deyil, o, həmçinin bəşəriyyəti gözləyən fəlakətlərin xəbərdarlığını verən mesajdır. Elə bu səbəbdən A.Klarkın elmi fantastika janrında yazılmış əsərləri bəşər övladını tarixi inkişafdakı təhlükələrə və ziyanlı vərdişlərə qalib gəlməyə, yalnız özünü düşünmə vərdişindən əl çəkib daha geniş müstəvidə mühakimə yürütməyə, əbədiliyi qəbul edib özündə ilahi başlanğıcı təcəssüm etməyə səsləyir.

A.Klarkın "Uşaqlığın sonu" və "Şəhər və ulduzlar" elmi-fantastik əsərləri utopiyanın nəyə qadir olması və utopiyadan antiutopiyaya keçidin şəffaf sərhədlərinin mövcudluğuna bir işarədirsə, eyni zamanda da gələcəkdə ola biləcək faciələrin xəbərdarlığıdır. Yazıçı gələcəkdə Yer kürəsinin acınacaqlı taleyini, müharibələrin törətdiyi fəlakətləri, insanın mənəvi-ruhani dəyərləri unutması və daima daha yaxşı yaşamaq və daha çox yaşamaq istəyindən doğan faciəsindən bəhs edir. Texniki tərəqqinin pozitiv tərəfləri kimi neqativ nəticələri də bəşəri xəbərdarlıq şəklində yazıçının əsərlərində ana xətt kimi izlənilir.

Texniki imkanların inkişafı və insanların daim rahatlığa can atması onların bir-birlərindən uzaqlaşmasına, özgələşməsinə və yadlaşmasına səbəb olmuşdur. Kompüterdən, televizor, planşet və

mobil cihazlardan, eyni zamanda da sosial şəbəkələrdən ayrılmayan insan övladı elmi nailiyyətlərdən bəhrələndiyi kimi, onun ən qorxulu çağına – ruhsuz insan-robot çağına qədəm qoydu. Əgər rahat həyat bizi yaxınlarımızdan ayırırsa, insanları biri-birindən uzaq salırsa texniki tərəqqi bizə lazımdırmı? A.Klarkın əsərləri elə bu suallara cavab axtarır və mümkün qədər mesajlar ötürür. Bu baxımdan yazıçının yaradıcılığı öz aktuallığını bu gün də qoruyub saxlayır və əhəmiyyətini itirmir.

Qərb ədəbiyyatşünaslığında A.Klark yaradıcılığı geniş tədqiqat obyektinə çəkilmiş, onun yaradıcılığını öyrənən elmi-tədqiqat işləri, o cümlədən dərsliklər, monoqrafiya və elmi məqalələr yazılmışdır. Başqa tədqiqatçılar (Q.Kleys, E.Rabkin, Ç.Deyli, D.Qusman, N.Makalir, K.Kumar, R.Levitas, K.Uolş, R.Reyd, L.Mamford, L.Sarcent, E.Rotşteyn, Q.Vestfal, Y.Malışova, Y.Şatski, O.Pavlova)[3] A.Klarkın yaradıcılığını bu və ya digər yöndən araşdırsalar da, yazıçının əsərlərində utopiya və distopiya elementləri alternativ gələcəyin intellektual və emosional təsviri, eyni zamanda da utopiya

[3] Claeys, G. Utopias of the British Enlightenment / G.Claeys. – Cambridge: Cambridge UP, – 1994. – 350 p.; Rabkin, E.S. Arthur C.Clarke / E.S.Rabkin. – Maryland: Wildside. – 2006. – 145 p.; Daley, Ch. British Science Fiction and the Cold War, 1945-1969: / Diss. / – Westminster University, 2013. – 160 p.; Guzman, D. Childhood's End Brings Beauty to Science Fiction // Los Angeles Times. – 1953, 30 August; McAleer, N. Arthur C.Clarke: The Authorized Biography / N.McAleer. – Chicago: Contemporary, – 1992. – 120 p.; Kumar, K. Utopia and Anti-Utopia in Modern Times / K.Kumar. – Oxford: Blackwell, – 1991. – 128 p.; Levitas, R. The Concept of Utopia / R.Levitas. – New York, NY Wien: Lang, – 2010. – 198 p.; Walsh, C. From Utopia to Nightmare / C.Walsh. – Connecticut: Greenwood Press, – 1992. – 170 p.; Reid, R.A. Arthur C.Clarke: A Critical Companion / R.A.Reid. – Greenwood. – 1997. – 230 p.; Mumford, L. The Story of Utopias. Azafran Books.194. https://movie.files.wordpress.com/2020/-05/24a21-57_story-of-utopias.pdf; Sargent, L.T. The Three Faces of Utopianism Revisited // Utopian Studies. 5.1. – 1994. – p.1-37; Rothstein, E. Visions of Utopia / E.Rothstein. – Oxford: New York. – 2003. –130 p.; Westfahl, G. Arthur C.Clarke / G.Westfahl. University of Illinois Press, – 2018. – 224 p.; Малышева, Е.В. Цветонаименования в антиутопии Дж.Оруэлла "1984" // Вестник Курганского государственного университета, – 2018. №2(49), – с.37-39; Шацкий, Е. Утопия и традиция / Е.Шацкий. – Москва: – 1990. – 130 с.; Павлова, О.А. Метаморфозы литературной утопии: теоретический аспект / О.А.Павлова. – Волгоград, – 2004. – 210 с.

və distopiyanın futuroloji forma kimi tədqiqi və bu simbiozun ideal gələcək axtarışlarının bədii təcəssümü ilə bağlı məsələlər indiyə qədər araşdırma obyektinə çevrilməmişdir.

İstər Azərbaycan-İngiltərə ədəbi əlaqələri ilə bağlı, istərsə də bu problemə yaxın mövzulara həsr olunmuş bir çox dissertasiyalar yazılmışdır. Bu baxımdan ədəbiyyatşünas alim Nailə Sadıqovanın tədqiqatlarını xüsusilə ilə vurğulamaq istərdik. N.Sadıqovanın "Utopiya və antiutopiya (İngilis ədəbiyyatı əsasında)"[4] yazdığı dissertasiya işi və "Utopiya və antiutopiya ədəbi prosesdə. Nəzəriyyə və təcrübə"[5] adlı monoqrafiyası Azərbaycan ədəbiyyatşünaslığında fundamental tədqiqat işi sayılır. Güllüzar İsgəndərovanın "XX əsr ingilis ədəbiyyatında antiutopiya: C.Oruell yaradıcılığında "1984"[6], Xumar Abdullayevanın "İngilis-Azərbaycan elmi fantastika ədəbiyyatının inkişaf təmayülləri (Herbert Uels və Azərbaycan elmi fantastikası)[7], Əsmər Əkpərovanın "Marqaret Etvud yaradıcılığında feminist ideyalar və antiutopiya"[8] Nigar Süleymanovanın "XX əsr ingilis və Azərbaycan ədəbiyyatında "Kütlə və hakimiyyət" romanının tipoloji birliyi (O.Haksli, C.Oruell, Y.Səmədoğlu)[9] və başqalarının tədqiqatları maraq doğurur. Lakin A.Klark yaradıcılığına həsr olunan ayrıca tədqiqat işinin yoxluğu təqdim edilən dissertasiyanın əhəmiyyətini şərtləndirən amillərdən sayılmalıdır. Onu da qeyd etməliyik ki, ingilis elmi-fantastika ədəbiyyatının aparıcı simalarından sayılan A.Klark yaradıcılığının

---

[4] Sadıqova, N. Utopiya və antiutopiya (İngilis ədəbiyyatı əsasında): / filologiya elmləri doktoru dis. / – Bakı, 2011. – 255 s.

[5] Sadıqova, N. Utopiya və antiutopiya ədəbi prosesdə / N.Sadıqova. Nəzəriyyə və təcrübə. Monoqrafiya. – Bakı: – 2006. – 166 s.

[6] İsgəndərova, G. XX əsr ingilis ədəbiyyatında antiutopiya C.Oruell yaradıcılığında "1984" / G.İsgəndərova. – Bakı: Azərbaycan Dillər Universiteti, – 2011. – 164 s.

[7] Abdullayeva, X. İngilis-Azərbaycan elmi fantastika ədəbiyyatının inkişaf təmayülləri (Herbert Uels və Azərbaycan elmi fantastikası): / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2022. – 32 s.

[8] Əkpərova, Ə. Marqaret Etvud yaradıcılığında feminist ideyalar və antiutopiya: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2023. – 32 s.

[9] Сулейманова, Н. Типологические общности романа "Массы и власти" в Английской и Азербайджанской литературе XX века (О.Хаксли, Дж.Оруэлл-Ю.Самедоглу): / дисс. доктора философии по филологии / – Баку, 2015. – 133 с.

təhlili bu istiqamətli tədqiqatları fərqli və maraqlı material və elmi ümumiləşdirmələrlə zənginləşdirə bilər.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini A.Klark yaradıcılığının ingilis ədəbiyyatı tarixində yeri və utopiya və distopiya janrı kontekstində ideya-bədii və məzmun xüsusiyyətlərinin öyrənilməsi təşkil edir. Tədqiqatın predmeti isə yazıçının "Uşaqlığın sonu", "Şəhər və ulduzlar" elmi-fantastik əsərlərində utopiya və distopiya janrının elementlərinin müəyyən edilməsi, utopiya və distopiyanın simbiozu və ideal cəmiyyət axtarışlarının araşdırılmasıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi ingilis elmi-fantastika ədəbiyyatının parlaq nümayəndəsi A.Klarkın elmi-fantastik əsərlərində utopiya və distopiya məsələlərinin tədqiqidir. Bu məqsədin gerçəkləşdirilməsi üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi müəyyənləşdirilmişdir:

– Utopiya və distopiya janrlarının ümumi səciyyəsi və ədəbi-nəzəri xüsusiyyətlərini müəyyənləşdirmək;

– Utopiya və antiutopiya/distopiya janrının genezisinin şərhini vermək;

– İngilis ədəbiyyatında utopiya və distopiya janrının tarixinə və ədəbi-estetik əsaslarına aydınlıq gətirmək;

– A.Klarkın yaradıcılığında distopiyanın intellektual və emosional təsvirini müəyyən etmək;

– "Uşaqlığın sonu" romanında utopiyanın reprezentasiyasını dəyərləndirmək;

– A.Klarkın əsərlərində utopiya və distopiyanın simbiozunu təyin etmək;

– "Şəhər və ulduzlar" romanında ideal cəmiyyət axtarışlarının izah və şərhini vermək.

**Tədqiqat metodları.** Tədqiqat işində Qərb ədəbiyyatşünaslığının A.Klark haqqında yazılmış araşdırmalarının geniş planlı ənənələrinə əsaslanaraq yazıçının romanlarının öyrənilməsində tarixi-müqayisəli, tipoloji-təhlil və bioqrafik metodlardan istifadə edilmişdir. O cümlədən ədəbi-tənqidi, elmi-nəzəri təhlil və elmi ümumiləşdirmələr ədəbiyyatşünaslığın müasir problemləri müstəvisində yerinə yetirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Utopiya və distopiya janrlarının bədii-estetik səciyyəsi elmi fantastika ədəbiyyatının ideya-məzmun və problem dairəsinin müəyyənləşdirilməsinə imkan verir;

– Ədəbiyyatda utopiya və distopiya janrı ideal cəmiyyət axtarışlarını aktuallaşdırır;

– İngilis ədəbiyyatında utopiya və distopiya janrı davamlı xətt üzrə inkişaf edir;

– A.Klarkın əsərlərində distopiyanın intellektual və emosional təcəssümü yaradıcılığının ideya-məzmununu əks edir;

– "Uşaqlığın sonu" romanında utopiya diskursu bədii reprezentasiya funksiyasını təşkil edir;

– A.Klarkın əsərlərində utopiya və distopiyanın simbiozu ideyası təkrar dəyərləndirmə və yeni təfsir şəklində aşkarlanır;

– "Şəhər və ulduzlar" romanında ideal cəmiyyət axtarışları yazıçının dilmancı kimi çıxış edir.

**Tədqiqatın elmi yeniliyi.** Təəssüflə qeyd etməliyik ki, elmi fantastika ədəbiyyatında "Kosmik əsrin peyğəmbəri" elan edilən A.Klark yaradıcılığı Qərb ədəbiyyatşünaslığında geniş şəkildə öyrənilsə də, Azərbaycan ədəbiyyatşünaslığında yazıçı haqqında yalnız məlumat xarakterli materiallar yer almış, yaradıcılığı geniş və sistemli araşdırma obyektinə çevrilməmişdir.

Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə bu tədqiqat işində Artur Çarlz Klarkın elmi-fantastik əsərlərində utopiya və distopiya məsələləri təhlil olunmuşdur. Eləcə də ədibin yaradıcılığında distopiya alternativ gələcəyin intellektual və emosional təsviri kimi öyrənilmiş, yazıçının utopiya və distopiya janrında yazdığı əsərləri futuroloji forma kimi müəyyən edilmişdir. "Uşaqlığın sonu" romanında utopiyanın reprezentasiyası və "Şəhər və ulduzlar" romanında ideal cəmiyyət axtarışlarının elmi ümumiləşdirmələrlə təqdimatı da araşdırmanın yeniliyi hesab edilə bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində aparılmış təhlil və ümumiləşmələr, əldə edilmiş nəticələr XX əsr ingilis ədəbiyyatının görkəmli nümayəndələrindən olan A.Klarkın sözügedən romanlarına dair elmi araşdırmalarda mənbə rolunu oynayar, həmçinin ali məktəblərin bakalavr və magistr pillələrində tədris prosesi zamanı

yazıçının yaradıcılığının araşdırılmasında, öyrənilməsində və dünya ədəbiyyatının tədrisində də istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas tezis və nəticələri Beynəlxalq və Respublika konfranslarında öz əksini tapmış, eləcə də Respublikada və xarici ölkələrdə nəşr olunan elmi məcmuə və jurnallarda çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi 6 səhifə, 10 325 işarə, I fəsil 33 səhifə, 64 315 işarə, II fəsil 40 səhifə, 81 009 işarə, III fəsil 32 səhifə, 62 201 işarə, Nəticə hissəsi 5 səhifə, 8 750 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 226 600 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, məqsəd və vəzifələri müəyyənləşdirilir, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, araşdırmanın aprobasiyası və quruluşu haqqında elmi məlumat diqqətə çatdırılır.

Dissertasiyanın **"Utopiya və distopiya janrlarının ümumi səciyyəsi və ədəbi-nəzəri xüsusiyyətləri"** adı ilə təqdim edilən **I fəsli** iki paraqrafdan ibarətdir. ***"Ədəbiyyatda utopiya və antiutopiya/distopiya janrlarının genezisi və modifikasiyası"*** adlı birinci paraqrafda qeyd edilir ki, müasir dövrdə utopiya janrı adı altında çoxlu əsərlər yazılsa da, utopiyaların mənbəyində Platonun "Dövlət" əsəri durur[10]. Bəzən yazırlar ki, bütün utopik ədəbiyyatı "Dövlət" əsərinin şərhi, izahı kimi gözdən keçirmək olar. Utopiya terminini ədəbiyyata gətirən, janrın XVI-XIX əsrlərdə inkişafına

[10] Sadıqova, N. Platonun "Dövlət" əsərində utopiya // – Bakı: ADU, Elmi xəbərlər, –2002. №3, – s.125-135.

səbəb olan klassik əsər T.Morun 1516-cı ildə qələmə aldığı "Utopiya"sıdır. T.Morun kitabında mövcud olmuş və ya olması ehtimal olunan dövlət və dövlət formalarından danışılır[11]. Məlumdur ki, utopik dövlətin yaradılması mümkün deyil. Yaşadığı mövcud siyasi idarəetmə formasını qüsurlu görən T.Mor "Utopiya" əsərində utopiya kimi təyin olunan daha yaxşı bir sistemi təsvir edir və bu təsvir iqtidarın mövqeyini sarsıtmaq və yerindən tərpətmək istəyinə əsaslanır. Bu mənada, utopiya, mövcud dövrə reaksiya olaraq əsaslandığı prinsipləri təcəssüm etmək üçün mükəmməl bir sistem yaratmağı hədəfləyən ideal bir cəmiyyətin obrazıdır[12]. Utopiyalar cəmiyyətin və siyasi sistemlərin problemlərinin mümkün həllini tapmaq, habelə güc və nəzarət münasibətlərini tənqid etmək üçün yaradılmışdır. Bu səbəbdən, kanadalı tədqiqatçı Darko Suvinin də qeyd etdiyi kimi utopiya, harmoniya, ədalət və nizam üzərində fəaliyyət göstərən bir sosial-iqtisadi və siyasi sistemə sahib xəyali cəmiyyətin formalaşmasına yönəlmiş fəlsəfi, ədəbi və siyasi düşüncələrdən ibarət bir ədəbi janrdır[13]. Utopiya tənqidçiləri adətən müəllifin (əksər hallarda – N.A.) uydurmasını müasir institutların kəskin tənqidindən daha çox, gələcəkdə heç də uyğun olmayan bir plan hazırlığını güman edirlər. Amma bu cür tənqid utopizmi sosializm və kommunizmlə, beləliklə də, Sovet sistemi ilə əlaqələndirməyə əsas verir. Məhz bu səbəbdən əksər yazıçılar belə nəticəyə gəlirlər ki, kapitalizm bütün qüsurlarına baxmayaraq totalitarizmdən daha çox azadlıq təklif edir. Hətta qabaqcıl texnologiyanın hamıya xoşbəxtlik gətirdiyi elmi fantastikalarda da kapitalist utopiyalarının neqativ tərəflərini göstərmək olur.

Utopiya çox zaman nəcib, lakin konkret şəraitdə həyata keçirilə bilən bir layihədir. İngilis alimi L.Mamford yazır ki, utopik düşüncə tərzi birtərəfli yanaşmanın, əyalətçiliyin əksi olan bir şeydir. Utopik metoddan istifadə edərək dünyanı dəyişdirməyə, daha kamil və

---

[11] Sadıqova, N. T.Morun "Utopiya" əsəri haqqında // – Bakı: ADU, Elmi xəbərlər, – 2003. №3, – s.224-227.

[12] Galston, W.A. Justice and the Human Good / W.A.Galston. – Chicago: Chicago UP, – 1980. – p.27

[13] Suvin, D. Metamorphoses of Science Fiction: On the Poetics and History of a Literary Genre / D.Suvin. – New Haven: Yale UP, – 1979. – 38 p.

xoşbəxt insan yaratmağa çalışanlar həyata toplum şəklində baxmalı, hər şeyi bütöv görməlidirlər[14].

Utopiyaya verilmiş təriflərin müsbət və mənfi xüsusiyyətlərini ümumiləşdirərək göstərmək olar ki, "utopiya" cəmiyyətin həyatının yalnız bu və ya digər tərəfini yaxşılaşdırmağa yönəlmiş hər hansı bir "ixtisaslaşdırılmış iş" deyil, o daha çox universal xarakter daşıyan cəmiyyətin dəyişməsini qarşısına məqsəd qoyan konseptual xarakterli layihədir. Təsadüfi deyil ki, N.Fray utopik əsər müəllifini simvolik hadisələri, ayinləri təsvir edən adlandırırdı: *"onları qeyri-adi hadisələr maraqlandırmır, çünki utopiyanın mövcudluğu özlüyündə qeyri-adi hadisədir"*[15].

Antiutopiya utopik cəmiyyətin inkişaf edəcəyindən sonra yaran problemlərdən bəhs edir. Əgər utopiya insanın fərdi xüsusiyyətlərini nəzərə almırsa, antiutopiya şəxsiyyətə belə münasibətin sonda qlobal böhranlara gətirib çıxaracağının xəbərdarlığını edir.

Distopiyaya antiutopiyanın sinonimi kimi də baxmaq olar. Yəni bəzən distopiyanı realist satiraya yaxınlaşdırmaqla onu neqativ başlanğıcı olan antiutopiyadan fərqləndirirlər. Antiutopiya daha gec yaranan janrdır. Amerikalı tədqiqatçılar Qlenn Neqli və Maks Patrik "Utopiya axtarışında: xəyali cəmiyyətlərin antologiyası") kitabında qeyd edirlər ki, distopiya utopiyanın əksi, onu məhv edən bir şeydir[16]. Sovetlər Birliyi ilə bağlı olan ölkəmizdə bu tip əsərlər "roman-xəbərdarlıq" adlanırdı. Amma o da qeyd edilməlidir ki, distopiya XX əsrdən çox əvvəl yaranmış, utopik sosializm ideyalarının inkişafı ilə yanaşı böyük antiutopiyalar da ortaya çıxmışdır. Bəzən də ilk antiutopiyaya ingilis filosofu T.Qobbsun 1651-ci ildə yazdığı "Leviafan" əsərini nümunə göstərirlər.

Antiutopiya utopiyaya qarşı etiraz, azad iradəyə və ya insan hüquqlarına zidd olan məsələlərin tənqididir. Rey Bredberinin "Faringeyt 451" romanında tiraniyanın dəhşətləri və ya buna bənzər

---

[14] Mumford, L. The Story of Utopias: [Electronic resource]. Azafran Books. 194. URL: https://movie.files.wordpress.com/2020/-05/24a21-57_story-of-utopias.pdf
[15] Frye, N. Varieties of Literary Utopias // – Daedalus. Utopia – 1965. Vol. 94, No. 2, – p.323.
[16] Negley, G. Max Patrick. The Quest for Utopia: An Anthology of Imaginary Societies / G.Negley. McGrath Publishing Company, – 1991. – 599 p.

bir şey yoxdur, ancaq əvəzində müəllifin tənqidi görüşlərini görmək mümkündür.

Distopiya isə utopiyanın tam əksidir, adətən burada qəddar və yalançı cəmiyyət qaydaları, KİV yalanları, toplum üzərində total nəzarət və s. kimi totalitarizmin spesifik xüsusiyyətləri təsvir edilir. Distopiyada qorxu altında yaşayan cəmiyyətdən, "yumruq" qorxusundan səsini çıxara bilməyən toplumdan bəhs edir. Distopiya həmişə özündə ümidsizik elementi daşıyır. O, insanların qanı və canı bahasına qurulan qəddar rejimlərin əksidir. Elə buna görə distopiya deyəndə ağla ilk öncə C.Oruellin "1984" romanı gəlir. Əgər antiutopiyada bəzi çətinliklər olsa da cəmiyyət rifah içində yaşayırsa, distopiyada firavan və rahat həyatdan söhbət gedə bilməz, insanlar məhrumiyyətlərlə yaşayır. Distopiya hər şeydən əvvəl repressiv, lakin sabit və güclü cəmiyyətin real modelidir. Distopiya tez-tez müasir elmi fantastika tərəfindən sürreal dünya yaratmaq üçün istifadə olunur. Belə dünya qüsursuz görünüşün altında antiutopiyaların meydana gəlməsi və inkişafında, ən pisi isə distopiya kimi qüsurlu sistemlərdə önə çıxır.

XX əsrin əvvəllərində totalitarizmin və siyasi korrupsiyanın yüksəlişi bir sıra yazıçıları cəmiyyətin gələcəyi və tərəqqisi ilə bağlı şübhələri ifadə etməyə vadar etdi. Məhz XX əsrin birinci yarısında baş verən hadisələrə görə distopik fantastika janrı populyarlıq qazandı. Elə bu səbəbdən Y.Zamyatin, O.Haksli, C.Oruell və R.Bredberinin bəşəriyyətin üz-üzə gəldiyi faciələri, xüsusilə zorakılığa söykənən totalitar düşüncə tərzinin təsbit olunmasına qarşı yönəlmiş xəbərdarlıqları – əsərləri meydana gəldi.

I fəslin ***"İngilis ədəbiyyatında utopiya və distopiya janrının mədəni-tarixi və fəlsəfi-estetik əsasları"*** adlanan ikinci paraqrafında qaldırılan problemlər ingilis ədəbiyyatı kontekstində öyrənilir.

Uydurulmuş və ideal olmayan cəmiyyətlərin təsvir olunduğu antiutopik əsərlər müəlliflərinin məqsədlərindən biri də oxucuda dəhşət hissi yaratmaq, onları qorxutmaq, qarabasmaları gerçək kimi göstərmək istəyindən qaynaqlanırdı. Bu tipli ilk roman Y.Zamyatinin 1920-ci ildə qələmə aldığı "Biz" romanıdır. Bu əsərin ardınca O.Haksli "Cəsur yeni dünya", C.Oruell "1984", R.Bredberi "Farengeyt 451" romanlarını yazır və bu əsərlər antiutopiya janrında

yazılan ən gözəl ədəbi nümunələr sırasında yer alır. Adı çəkilən bütün əsərlərdə insanların arzu, istək və iradəsi ilə hesablaşmadan yaradılan "ideal" cəmiyyət təsvir olunur.

Distopik cəmiyyətlərdə zor gücünə insanların itaətdə saxlanılması təsvir olunur. Burada vahid şüurun qorunub saxlanmasına nəzarət edən düşüncə polisləri yaradılır, insanları robot kimi idarə etmək üçün texnikadan istifadə olunur. O.Hakslinin "Cəsur yeni dünya" romanında insanları laboratoriyada yetişdirir və səkkiz aylığından onlara elektroşok vurmaqla istənilən fikirləri aşılayır, istənilən istiqamətə yönəldirlər. Antiutopik əsərlərdə əsas təlim üsulu televiziya, radio və kütləvi mitinqlərdən istifadədir. Onların əsas hədəfi azad düşüncəyə səbəb olacaq kitablardır və biz bunun ən bariz nümunəsini R.Bredberin "Farangeyt 451" əsərində yandırılan kitabların təsvirində görürük. Bu əsərlərdə qəhrəmanın həm oyanışı, həm də faciəsi ondadır ki, o kütlənin tərkibi olmaqdan bezir, fərqli düşünmək istəyir. Cəmiyyət isə onun normalarına, qayda-qanunlarına tabe olmayanları qəbul etmir və məhvinə çalışır. Onların əsas prinsipi budur: *"Əgər başqaları kimi deyilsənsə, demək tənhasan"*[17].

C.Oruellin "1984" romanında insanları idarə etmək üçün beyini təmizləyən aparatlarla yanaşı, onlarda müharibəyə qarşı qorxu hissi də aşılanır. Savaşın həqiqətən olub-olmaması elə də vacib deyil, yetər ki, insanlarda qorxu hissi yaratsın.

O.Hakslinin demək olar ki, bütün əsərləri yarandığı dövrün köklü sosial problemlərini təsvir etməklə yanaşı bu problemləri doğuran səbəbləri təhlil etmək, son dərəcə çətinliklə sezilən inkişaf meyllərinin gələcəkdə hansı nəticələrə səbəb olacağını üzə çıxarmaqdan ibarətdir. Yazıçı bir tərəfdən XX əsrin əvvəllərində dünyada müxtəlif formalarda hökm sürən, cəmiyyətin bütün qurum və təsisatlarının dərin böhrana uğramasını şərtləndirən, İngiltərədə isə bu ölkəyə xas olan adət-ənənələrin qorunub saxlanmasına olan meylin baş alıb getməsi faktı ilə, digər tərəfdən T.Morun utopik konsepsiyasının gerçəkləşməsi təhlükəsi ilə üz-üzə dayanmaq məcburiyyətində idi. Hər şeydən əvvəl XX əsrin əvvəllərində

---

[17] Брэдбери, Р. О скитаниях вечных и о Земли / Р.Брэдбери. – Москва: Правда, – 1987. – с.489

utopiyaların gerçəkləşməsi dövrü belə bir həqiqəti üzə çıxartdı ki, antiutopiyalar bəşər nəslini gözləyən təhlükələri qabaqcadan göstərmək iddiasında olsalar da, uzaq gələcəyi dəqiq şəkildə proqnozlaşdırmaq iqtidarında deyillər. Antiutopiyada cəmiyyətin müasir durumunu tənqid etməklə yanaşı gələcəkdə gerçəkləşən hadisələrin bəşər nəslinə qarşı yönələn qorxunc bir qüvvə olmasının xəbərdarlığı edilir, onun indiki durumun daxilində rüşeym şəklində mövcud olması irəli sürülür. Deməli, antiutopiyada indiki duruma münasibət birmənalı deyil, yəni, bir tərəfdən ictimai qurum kimi mövcud cəmiyyət kamil deyil, əks təqdirdə utopiyanın yaranmasına zəmin olmazdı. Digər tərəfdən mövcud durumu hər vəchlə qoruyub saxlamaqla onun daxilində müəyyən ictimai meyllərin nəticəsi kimi təşəkkül tapan utopiya gerçəkləşərsə, gələcəkdə bəşəriyyəti dəhşətli aqibət gözləyəcək.

Deməli, antiutopiya mövcud quruluşa ikili münasibətdədir, o həm müsbət, həm də mənfi ola bilər. O zaman belə qənaətə gəlmək olar ki, antiutopiyanın hədəfi hər zaman utopiya yox, gerçəklik olmuşdur. Əgər biz antiutopiyaya da utopiyalar üçün səciyyəvi olan idealın və gerçəkliyin qarşıdurmasını şamil etsəydik, problemin mürəkkəbliyini və ziddiyyətli xarakterini nəzərə almamış olardıq. Gələcəkdə bəşər nəslini gözləyən qorxunc fəlakətləri öz içərisində bəsləyib yetişdirən gerçəkliyin özü də dolayısı ilə antiutopiyanın tənqid hədəfidir. Təsadüfi deyil ki, antiutopiya janrında yazan ingilis yazıçı Oldos Haksli "Cəsur yeni dünya" əsərində yazırdı ki, *"Ancaq utopiyalar əvvəllər düşünüldüyündən daha tez ərsəyə gəldi. İndi daha bir ağrılı sual yaranır, onların sonda tam mövcudluğundan necə qaçmaq olar... Utopiyaların yaranması mümkündür.... Həyat özü utopiyalara doğru irəliləyir. Bəlkə də utopiyadan necə qaçmaq, utopiyanın olmadığı cəmiyyət arzulayan, elə də "mükəmməl" olmayan və daha azad cəmiyyətə necə qayıtmaq barədə düşünən mədəni toplumun və ziyalıların xəyallarını əks edən yeni əsr gəlir"*[18].

C.Oruell "1984" romanında göstərdi ki, heç bir özəl dünya yoxdur və bizim hər birimizin utopik dünyası tək bizə aid deyil. O.Hakslinin "Cəsur yeni dünya" romanında da olduğu kimi, yeni yaranan utopik quruluş insanların firavan yaşamasına zəmanət

[18] Huxley, A. Brave New World / A.Huxley. – Harper Perennial, – 2006. – p.23

vermir. Əsərin bütün qəhrəmanları bərabər hüquqlu görünür, lakin bu onlara xoşbəxtlik gətirmir. Bütün vətəndaşlar bərabərhüquqludur, bütün həsəd və münaqişə mənbələri aradan qaldırılıb. Arzular yerinə yetir, amma insanın fərd kimi kimliyi nəzərə alınmır. İnsan var, amma eyni zamanda da onun mövcudluğu şəxsiyyət kimi deyil, əşya kimi görünür.

Antiutopik əsərlərdə bir ana xətti təqdim etməyə çalışırlar: insan yalnız xoşbəxtlik haqqında təsəvvürlərinə uyğun gələrsə xoşbəxt ola bilər. Əzab və ağrı insanın mənəvi-ruhani inkişafının tərkib hissəsidir. İnsanı fərdi istəklərdən uzaqlaşdırmaqla, səhv yolla dünyanı tanımaq imkanından məhrum etməklə azadlığını, seçim bacarığını əlindən almaq, beləcə, onu bir şəxsiyyət kimi yox etmək deməkdir. Həm O.Hakslinin, həm C.Oruellin adı çəkilən romanlarında görmək olur ki, antiutopik cəmiyyətdə insan ağlını və iradəsini sıxışdırmaqla siyasi rejimlər öz istəklərinə nail ola bilirlər. Məhz bu rejimlərdə insan həyatının mənası sadə ehtiyacların ödənilməsinə enir və yalnız bundan sonra hakimi mütləq quruluş bu ehtiyacları uğurla tənzimləyir. Müstəqil düşüncəli insan həmişə kütlə arasından seçildiyi üçün onu qorxu və repressiya yoluyla "sakitləşdirir" və bu şəkildə idarə edirlər.

Tədqiqat işinin **"Artur Klarkın elmi-fantastik əsərlərində utopiya və distopiya elementləri"** adlanan **II fəsli** iki paraqrafdan ibarətdir. ***"Artur Klarkın yaradıcılığında distopiya alternativ gələcəyin intellektual və emosional təsviri kimi"*** adı ilə təqdim edilən birinci paraqrafda göstərilir ki, fantastik əsərlərdə utopiya və distopiya janrlarından istifadə edən yazıçılar yaşadıqları və ya yaşamaq arzusunda olduqları dünyanın bu janrda əksini tapan sistem və cəmiyyətlərin qurulmasında tələb olunan şərtləri və qüsurlu ictimai-siyasi qaydaları təsvir etməklə oxucuya ciddi mətləbləri yönəldirlər. Amerikalı tədqiqatçı L.Sarcentin sözləri ilə desək bu kimi əsərlər *"insan həyatını necə təşkil etmələri ilə nəticələnən xəyallar və ya kabuslar"*[19] və sosial yuxu alətidir.

XX əsrin böyük fantastı A.Klark elmi fantastik janrının aparıcı yazıçılarından biri kimi geniş oxucu auditoriyasına malikdir. Onun

---

[19]Sargent, L.T. The Three Faces of Utopianism Revisited // Utopian Studies, – 1994. 5.1, – p.5

əsərlərində qaldırılan məsələlər heyrətamiz şəkildə həyata keçmiş, ədəbi tənqiddə mübahisə obyektinə çevrilmişdir. A.Klark digər məşhur Amerika fantast-yazıçısı Ayzek Azimov (Isaac Asimov, 1920-1992) kimi elmi fantastik mövzuları ilə kosmik tədqiqatlardan, texnologiya və digər mövzulardan bəhs etmiş, ictimai-siyasi gerçəkliyin mübahisəli və tənqidi görüşlərini təhkiyə obyektinə çevirməklə janrın sərhədlərini inanılmaz dərəcədə genişləndirmişdir[20]. Klark Fondunun vurğuladığı kimi, yazıçının yaradıcılığı *"elmi irəliləmədən elmi fantastikaya, texniki tətbiqetmədən əyləncəyə qədər yazdığı əsərləri ilə elm dünyasına körpü salıb"*[21]. Bir futurist yazıçı olaraq, A.Klark bu gün çalışan yaradıcı elm adamlarına geniş layihələr vermiş, bəşəriyyəti düşünməyə vadar edən xəbərdarlıqlar ötürmüşdür. Onun yaradıcılığını qoruyan Klark Fondu və İnstitutu "Klark qanunları"nı irəli sürmüş, gələcəkdə baş tutan yeniliklərdə onun da payı olduğunu bəyan etmişdir. Bu Fond A.Klarkın əsərlərini yaxın gələcəkdə baş tutan elmi kəşflərdən, qalaktikalar arası istismardan, apokalipsisin baş tutmasından, texnologiyanın inkişafından sonra baş verən mənəvi deqradasiyanın təsviri kimi dəyərləndirir, bütünlükdə yaradıcılığını elmi fantastikanın ümumi mövzuları ilə əlaqələndirir[22]. R.Ceykobinin də qeyd etdiyi kimi *"Klarkı utopiya kontekstində öyrənilməsi maraqlıdır, çünki onun kitablarında utopiyanın elmi-fantastik tənqidi həmçinin utopik bir qeyd olaraq da oxunacaq"*[23]. Dünyada mövcud olan utopiyanın, başqa sözlə, kommunizm və kapitalizmin necə meydana gəldiyini, sonra distopiya reallıqları ilə sona çatdığını biz A.Klarkın əsərlərində əyani şəkildə görə bilirik. A.Klarkın "Uşaqlığın sonu" romanı iki raket aliminin müqayisəsi ilə başlayır və onlardan birinin Şərqi, digərinin isə Qərbi seçdiyini görürük. Amerika Birləşmiş Ştatları və Sovetlər Birliyi arasındakı silah və kosmik yarışına istinad edən müəllif hər iki tərəfin utopik istəklərini önə çəkir. Hər iki alim öz

---

[20] Moorcock, M. Brave New Worlds // The Guardian. – 2008, 22 March
[21] Arthur Clarke Foundation [Electronic resource]. URL: https://clarkefoundation.org/
[22] Westfahl, G. Arthur C.Clarke / G.Westfahl. University of Illinois Press, – 2018. – 224 p.
[23] Jacoby, R. Picture Imperfect: Utopian Thought for an Anti-Utopian Age / R.Jacoby. – New York: Columbia UP, – 2005. – p.140

xüsusi üsulları ilə kosmosa bir raket atma layihəsi üzərində çalışır. Daha sonra "Üst qüvvələr"in gəlişi, daim təcridolma və bağlanma təhlükəsi qarşısında qalan utopiyaların yaranması hər iki alimi öz ixtiralarından imtina etməsi ilə nəticələnir. Məlum olur ki, Yer kürəsinə xarici məkandan qadağalar – insanlara artıq kosmik gəmilərə mesaj göndərməyə icazə vermir.

A.Klarkın təsvirinə görə yad "Üst qüvvələr" tərəfindən yaradılan bu sifariş utopiyanın əyani təzahürüdür. "Uşaqlığın sonu" romanının ikinci hissəsində oxuyuruq: *"Bütün əvvəlki dövrlərin normalarına görə bu utopiya idi. Cahillik, xəstəlik, yoxsulluq və qorxu demək olar ki, yox olmuşdu. Bir kabus şəfəqdə itən kimi müharibə xatirəsi keçmişə çevriləcək, tezliklə bütün canlıların təcrübəsindən kənarda qalacaqdır"*[24].

Utopik ideallların tarixən sübut edilmiş distopik nəticələrinin tənqidinə A.Klarkın "Yer işığı", "Uşaqlığın sonu", "Şəhər və ulduzlar" romanlarında rast gəlinir. Bu əsərlər ingilis elmi-fantastik romanının soyuq müharibə dövrünü oxucuya çatdıran ən bariz nümunələridir. Adı çəkilən romanlar "azadlıq və xoşbəxtlik" görünüşü altında ideal idarəetmə formasına nail olmaq üçün təslim, nizam-intizam, güc və nəzarət ilə idarə olunan sistemlər quran və qoruyan utopik dövlətlərin totalitar quruluşa xidmət etdiyini göstərir. İnsanlar və ya yadplanetlilər tərəfindən yaradılmış utopiyalar sonda distopik vəziyyətə düşürlər, bununla da utopiyaların meydana gəlməsinə səbəb olan distopik şərtləri ifşa edirlər. A.Klark soyuq müharibə fonunda daha yaxşı bir dünyanın və ya daha yaxşı bir gələcəyin mümkün olacağını önə çəkmir, lakin fantastik romanlar zəminində müəyyən bir mövzunu tənqidi çərçivəyə salır. A.Klark Qızıl dövrün mövcudluğunun apokaliptik bitməsini, onun yerində mütləq bir distopiya olmadığını təsvir edərkən fərqli bir mənzərə yaradır – bəşəriyyət sona çatsa da, insanlar fərqli bir formada olsalar da, yaşayırlar.

Beləliklə, bu əsərlərin daha dərindən təhlili zamanı distopiyanı ortaya çıxaran utopik ideallların soyuq müharibə dövrünün elmi fantastikasında siyasi mesaj olduğunu görürük. Amma onu da qeyd etməliyik ki, distopiya heç vaxt indiki zamanla bağlı deyil, o bir

---

[24] Clarke, A.C. Childhood's End. / A.C.Clarke. – UK: Del Rey. – 2015. – p.60

qayda olaraq gələcəklə bağlıdır. Fərd istəklərinin yerinə yetirilməsindən heç vaxt məmnun qalmadığı üçün, hər zaman dəyişiklik istəyir. Utopiyaların daha yaxşı bir həyat arzusu olması, mütləq hamı üçün daha yaxşı bir dünya olacağı anlamına gəlmir. Utopik ümid və ya həsrət özünəməxsus kollektiv xarakter daşıyır və fərdlə heç bir əlaqəsi yoxdur[25]. Əslində məhdudiyyətlər önə qoyulanda və xüsusi orqanlar tərəfindən idarə edildikdə "daha yaxşı" insanların azadlıqdan məhrum edilməsi və hər şeyin hakimiyyətin nəzarəti altında olması arzuolunmaz bir gerçəkliyə çevrilir[26]. R.Levitasın bu fikirləri "Uşaqlığın sonu" romanındakı xaosun bəzi tədbirlərlə aradan qaldırılmasında, harmoniyanın ölkəyə gətirilməsində öz əksini tapir. "Şəhər və ulduzlar" romanında isə insanlar cəmiyyətə nizam-intizam gətirmək üçün təsnif edilir. Lakin bunların hər ikisində insanların həyatından, yaşam tərzindən, hisslərindən və istəklərindən asılı olmayaraq dövlətin əsas qayğısı insan həyatının daha yaxşı olmasını təmin etməkdir. A.Klark da bu problemləri alternativ gələcəyin intellektual təsvirində önə çəkir.

***"Uşaqlığın sonu" romanında utopiyanın reprezentasiyası"*** adlanan ikinci paraqrafda adı çəkilən əsər təhlil edilir və utopiyanın reprezentasiyası dəyərləndirilir. XX əsrdə elm və texnikanın inkişafı insanı dünyanı yeni tərəfdən qəbul etməyə məcbur etdi. Uğursuz utopik cəhdlər və keçmişin ideallarını nəzərə alaraq həm indi, həm də gələcəyi düşünən E.Rabkin "Artur Klark" monoqrafiyasında yazır ki, qədim zamanlarda insanlar gələcəyi bu günün davamı kimi görürdülər və *"onlar insanların sonda bərpa olacaq Qızıl dövr mifini" rahatlıqla yaratdılar"*[27]. Keçmiş inancların yenidən düşünülməsi ideyası vəd edilmiş Qızıl dövrün də xəyal olduğuna səbəb oldu. Beləliklə, müasir əsrdə də utopiyaların təqdim olunduğu formalardan əhəmiyyətli dərəcə fərqli olduğu üzə çıxdı. II Dünya müharibəsindən sonra Holokostun reallığı, Stalin sayağı vəhşiliklər və ABŞ hegemonluğunun yayılması xəbərləri və siyasi idealizm qorxusu gücləndi. Frederik Ceymson

---

[25] Freedman, C. Critical Theory and Science Fiction / C.Freedman. – Hanover: Wesleyan UP, – 2000. – 205 p.
[26] Levitas, R. The Concept of Utopia / R.Levitas. – New York, NY Wien: Lang, – 2010. – 4 p.
[27] Rabkin, E.S. Arthur C.Clarke / E.S.Rabkin. – Maryland: Wildside. – 2006. – p.7

*"Gələcəyin arxeologiyası" kitabında yazır ki, utopiya bir proqramın təyini üçün gəlmişdi... sonra vahid bir iradə və mükəmməl bir sistemin qüsursuz və istəksiz mövzularına zorla tətbiq edilməli olan xəyallara xəyanət etdi"*[28]. Bu inam və iman böhranı, müasir tarixə qaçılmaz bir cavab olaraq spekulyativ fantastika janrının yüksəlməsini ortaya qoyan distopiyanın tənqidi araşdırmalarına qədər uzandı. Məsələn, amerikalı tənqidçi R.Elliota görə *"utopiyaya inanmaq üçün tariximizin təxminən əlçatmaz hala gətirdiyi bir növ imana sahib olmaq lazımdır"*[29].

A.Klarkın "Uşaqlığın sonu" romanı müharibədən sonrakı dövrdə utopiyaların təhlükəli vəziyyətini və bu problemin vacibliyini önə çıxardı. Əsər azadlıq və xoşbəxtlik görünüşü altında ideal idarəetmə formasına nail olan, xarici işğallar, kosmosa səyahətlər və apokaliptik görüntülər fonunda belə bir quruluşun mövcudluğu və utopik dövlətlərin nizam-intizam və nəzarət ideyasını faş edir. 1953-cü ildə yazılan əsər son insan nəsli və ən sonuncu insanı haqqındadır. Yazıçı bəşəriyyəti düşündürən suallar qaldırır və oxucunu düşünməyə səsləyir: İnsan hansı taleyi seçməlidir, hansı tale daha yaxşıdır. Əsərin baş qəhrəmanı Karellen irqinə, yəni yenidən doğulmaqla öz evinə, soyuna qayıtmaq, ya da keçmişdən qopub naməlum gələcəyə üz tutmaq və ya əbədi yaşamaq, amma fərd olaraq deyil, sivilizasiya naminə mövcud olmaq kimi suallar qaldırır.

Yazıçı Qızıl dövrü meydana gətirən, yoxsulluq və müharibəni sona çatdırmaq üçün Yer kürəsində xeyirxah və hədsiz dərəcədə ağıllı yadplanetlilərin – Güc qüvvələrinin hekayəsini təsvir edir. Yalnız sonda bir gücə xidmət etdiyini ortaya qoymaq üçün insan övladının üstün zəka ilə birləşməsini, ruhundan imtina etməsinin səbəblərini açır. Beləliklə, A.Klark insanın utopik istəklərini, zaman sıçrayışları ilə bağlı hadisələri izah etməklə, tədricən utopiyanın distopiya ilə əvəzlənməsini göstərir.

R.Skoulz və E.Rabkin "Elmi fantastika" əsərində qeyd edirlər ki, bütün utopik fantastikalar arasında ən çox hörmət edilən və həvəslə oxunan "Uşaqlığın sonu" həm müəyyən bir hekayə, həm

---

[28] Jameson, F. Archaeologies of the Future: The Desire Called Utopia and Other Science Fictions / F.Jameson. – London: Verso, – 2005. – p.11

[29] Elliott, R.C. The Shape of Utopia: Studies in a Literary Genre / R.C.Elliott. – Chicago: University of Chicago Press, – 1990. – p.36

utopik düşüncənin inkişafına dair bir araşdırma olmaqla yanaşı, həm də elmi fantastika sahəsinin əhəmiyyətli bir hissəsini müəyyənləşdirir[30]. Biri-biri ilə kosmosun fəthi uğrunda yarışaraq raketlər düzəldən iki dövlət özləri də fərq etmədən yad planetlilərə məğlub olur, kosmosun kəşfinə və fəthinə olan ümidləri heçə enir. Artıq onların dünyası yad planetlilər tərəfindən zəbt edilir. İnsanın yaratdığı raketlər artıq gərəksiz bir əşya kimi lazım olmur: *"Əbədilik kimi görünən bir anlıq onun bütün dünyanı seyr etdiyi, böyük gəmilərin böyük əzəmətlə yerə endiyi, nəhayət, onların stratosferin nazik havasından keçidini görəndə anlaşıldı. O, peşman deyildi ki, ömrünü sərf etdiyi iş puç oldu. O, insanları ulduzlara çatdırmaq üçün zəhmət çəkmişdi və uğur anında ulduzlar – uzaq, laqeyd ulduzlar – onun yanına gəldilər. Bu, tarixin nəfəsini saxladığı və indiki zamanın keçmişdən qopan aysberqin donmuş, ana qayalıqlarından qoparaq yalnız və tənha, amma qürurla dənizə çıxdığı an idi. Keçmiş əsrlərin əldə etdiyi hər şey indi heç nə deyildi: yalnız bir fikir onun beynində əks-səda verirdi: İnsan artıq tək deyil"*[31].

"Uşaqlığın sonu" romanı utopiya ideyasının arzulanması ilə yanaşı onun mənfi nəticələrini göstərir, utopik Qızıl dövr planını heçə endirir. Bütün əsr boyu qəhrəman tədricən öz varlığından şübhələnməyə başlayır və keçmişə qayıtmaqla babalarının tanış olduqları, ancaq sonralar unutduğu bir şeyi bərpa etməyə çalışır. Məlum olur ki, onların unutqanlığı şər qüvvələrin təsirindən baş verir, çünki insanın Yer üzündə yaşadığı bütün həyatı böyük bir yalan, həqiqətdən uzaq qalmasıdır. İnsanın dünyada yerini şərh edən N.Berdyayev yazır ki: *"Biz mədəniyyətin və ictimai həyatın bütün sahələrində dehumanizasiya prosesinin iştirakçısıyıq. Və hər şeydən əvvəl mənəvi şüur humanistlikdən uzaqlaşır. İnsan artıq nəinki ali dəyər deyil, o, ümumiyyətlə, daha dəyər deyil"*[32].

Deməli, insan təfəkkürünün məhdudlaşdırılması və ilahi aləmlə arasında sədd qoyulması onun müqəddəslik duyğusunun, imanının

---

[30] Scholes, R. Science Fiction: History, Science, Vision / R.Scholes, E.Rabkin. – New York: Oxford UP, – 1977. – p.216

[31] Clarke, A.C. Childhood's End / A.C.Clarke. – UK: Del Rey, – 2015. – p.220.

[32] Бердяев, Н.А. Судьба человека в современном мире. К пониманию нашей эпохи // Философия свободного духа. – Москва: Республика, – 1994. – с.328

itirilməsinə səbəb oldu. Digər tərəfdən, ali varlığa çatmaq, bənzəmək üçün nümunə olan daha ali birinin olmaması, kamil nümunələrin də nöqsanlı olması fikri insan şəxsiyyətinin cırlaşmasına, mənəviyyatının kasadlaşmasına gətirdi. A.Klark da əsərində bu problemi bədii şəkildə təqdim edir.

Dissertasiyanın **III fəsli "Artur Klarkın yaradıcılığında utopiya və distopiya futuroloji forma kimi"** adlanır. Bu fəsil də iki paraqrafa ayrılmışdır. Birinci paraqrafda ***"Artur Klarkın əsərlərində utopiya və distopiyanın simbiozu"***ndan söhbət açılır. Qeyd edilir ki, müasir dövrdə texnologiyanın inkişafı, sosial və qlobal problemlərin kəskinləşməsi insanın mövcudluğunu təhlükə altına aldı. Bu səbəbdən ictimai inkişafla bağlı proqnozların verilməsi dövrümüzün ən aktual məsələsinə çevrildi. Gələcəyin tədqiqi futuroloji konsepsiyaların irəli sürülməsi ilə əlamətdar oldu. Proqnozlaşdırma sahəsində dərin biliklər, sənətkarın qeyri-adi düşüncəsi də bu sahədə öz sözünü dedi.

Gələcək elmi tədqiqatlar, texniki tərəqqi cəmiyyətin inkişafının bugünkü futuroloji ideyalarının dərk edilməsi, eləcə də onun inkişaf istiqamətlərinin işlənib hazırlanmasını tələb edir. Soyuq müharibə dövründən başlayaraq elmi-texniki tərəqqinin artması, eləcə də sosial gərginlik və hərbi qarşıdurma hərbi texnikanın, hərbi strategiyaların hazırlanması üçün ixtisaslaşmış mərkəzlərin təşkilinə səbəb oldu. Bu sahədə çalışan mütəxəssislər sonradan futuroloji mövzuların əsas yaradıcıları oldular. Biz bunu A.Klarkın tərcümeyi-halında əyani şəkildə görə bilirik. Məlumdur ki, yazıçı uzun illər elmi tədqiqat institutlarında çalışmışdır.

Utopiya gələcək məqsədlərin təsvirini, cəmiyyətdə yaranan əsas ideallların reallaşmasını təklif edir. Eyni zamanda, nəzərə almaq lazımdır ki, gələcəyi, xüsusilə uzaq gələcəyi rasional olaraq ölçmək, dəqiq metodlarla öyrənmək çətindir. Bunun üçün fərziyyələrə, metaforik düşüncələrə və utopik xəyallara dalırıq. Fantast-yazıçılar bu problemi asanlıqla həll edirlər. Onlar mövcud tendensiyaları müəyyənləşdirir və sonra onları uzaq bir reallığa köçürür, müasir problemlərin maksimum həll edildiyini əsərlərində göstərirlər. Elmi fantastika, mövcud elmin nailiyyətlərini ardıcıllıq prinsipi əsasında modelləşdirməklə, futuroloji yanaşmayla həyata keçirir. A.Klarkın

qəhrəmanları bir qayda olaraq ümidini məhz bu cəmiyyətə qoyur. Quruluşun digər rolu absurdluq, dəyərsizlik və qorxu emosiyaları yaratmaq üçün baş qəhrəmana qarşı durur, lakin səhnə həm də baş qəhrəmana yuxarı qalxmaq və qəhrəman olmaq imkanlarını təmin edir və biz bunları yazıçının "Uzaq Yerin nəğmələri", "Beşik", "Allahın çəkici" romanlarında görə bilərik.

A.Klarkın əsərlərində nümayiş edilən nanotexnologiyanın utopik imkanlarını da görmək olur: miniatür maşınlar sanki möcüzəvi şəkildə müalicə edir. Biz bunu neyrocərrahiyyədə və digər cərrahiyyədə istifadə edilən mini robot skalpların varlığında görürük. Ənənəvi utopiya insanı olduğu kimi qəbul edir, qanunvericiliklə və təhsillə insanı utopiyaya uyğunlaşdırmağa ümid edir. Utopiyanın müasir forması daha mükəmməl cəmiyyətin təkamülü və texnologiyanın nəticəsidir.

A.Klarkın 1958-ci ildə yazdığı "Uzaq Yerin nəğmələri" ("The Songs of Distant Earth") romanı uzaq gələcəkdə utopik bir insan koloniyasından danışır. Bu koloniyada artıq Günəş yeni bir ulduza çevrilib, məhv edilmiş Yerə isə ziyarətə gəlirlər. Yazıçı əsərdə utopik və ateist ideyalardan bəhs edir, apokalipsisin baş verməsindən söz açır, amma eyni zamanda da ulduzlararası səyahətləri və yerdənkənar həyatı təsvir edir. Amerikalı ədəbi tənqidçi D.Lenqford yazır: *"gəlin etiraf edək ki, Klarkın personajları yalnız üç duyğunu idarə edə bilir: intellektual aclığı və itirilmiş şöhrət üçün kədər hissini və bir də sonsuzluq qarşısında ehtiram hissini"*[33]. Tədqiqatçı utopiya ilə distopiya arasında qalan, süni intellektin və texniki tərəqqinin məhv etdiyi insandan bəhs edir. A.Klarkın "Beşik" ("Cradle", 1988) romanı da utopiya ilə distopiyanın simbiozunu əks edən əsərlərdən biridir. Əsər Mayami bölgəsindən olan bir neçə nəfərin Florida sahillərində zədələnmiş kosmik gəminin super robotları arasında əlaqəsindən söz açır və bir daha göstərir ki, 80-ci illərin sonunda yazılan bu əsər XXI əsrdə məlum olan texnologiyaları təsvir edir. Məhz bu təsvir sayəsində əminliklə demək olar ki, A.Klark futurist yazıçı idi və "Beşik" romanı bunun əyani sübutudur. Əsərdə istifadə olunan video telefonlar və yüksək sürətli sualtı skaner avadanlığı telekommunikasiya sahəsindəki irəliləyişlərdən bəhs edir, bu isə öz

---

[33] Langford, D. Critical Mass // White Dwarf. Games Workshop. – 1986. №81, – p.16

növbəsində gündəlik həyatdan tutmuş yaxın gələcəyə qədər uzanan texnoloji tərəqqinin göstəricisi kimi dəyərləndirilməlidir.

"Allahın çəkici" ("The Hammer of God", 1993) romanındakı hadisələr isə 2109-cu ildə baş verir. Əsər Yer ilə toqquşa biləcək asteroidin kəşfi ilə başlayır və atom istilik raketlərindən istifadəni, asteroidin yönləndirilməsini təsvir edir.

"Allahın çəkici" gələcəkdə olacaq cəmiyyətin müxtəlif aspektlərini təsvir edir və yazıçı bu şəkildə Yer kürəsini idarə edən Dünya hökumətindən danışır. Tədricən məlum olur ki, Yerdə olduğu kimi Marsda və Ayda da hökumət qurulub. Yeni texnologiyalar vasitəsilə "ağıllı" (smart) evlər, gen modifikasiyasına uğramış ev heyvanları, "insan-beyin" adlı kompüter-beyin interfeysləri, süni intellekt və nəhayət insan həyatını uzadacaq dərmanlar icad edilib. Dövlətin iqtisadi layihələri ən pik həddə çatıb, Beynəlxalq bank sistemləri riyazi nəzəriyyələr üzərində işləyir və beləcə kommunizm və kapitalizm ideyaları birdəfəlik beyinlərdən silinib.

A.Klarkın utopiyası gələcəyi dərk etmək üçün rəsmi başlanğıc və mükəmməl ictimai quruluşun əsası demək idi. Gələcəyin utopiyası antiutopiyanı da, futuroloji düşüncəni də aktual etdi. Əgər utopiya və antiutopiya bədii formanın modelləridirsə, futuroloji düşüncə "gələcəyin tədqiqi" və gələcək haqqında yeni-yeni konsepsiyaların meydana gəlməsidir. Utopiya və antiutopiya nə isə yeni bir cəmiyyətin modelləşməsi, bu gün üçün alternativ dünyanın əksidir. Demək utopiya elə öz nüvəsində gələcəyin başlanğıcıdır. Futuroloji düşüncədə isə gələcək haqqında istəklər dayanır, ona görə o daha çox proqnoz xarakterlidir. Başqa sözlə, utopiya alternativ dünya modelindən gələcəyin qurulmasına doğru yol gedir. Futuroloji forma isə gələcəyin yeni obrazı haqqında düşüncələrdir. Əslində dünyanın indiki vəziyyətinin əhəmiyyətli dəyişikliklərlə gələcəkdə də davam etməsi və həyata keçməsinə toxunur. Bu mənada elmi fantastika gələcəyi dərk etməyin müxtəlif formalarıdır. Elmi fantastika texnoloji kəşflər və onların cəmiyyətə təsirindən bəhs edir və elə bu səbəbdən arzu olunan obrazları ilə elmin məlumatlarını birləşdirir, yerinə yetməyən utopik istəkləri irəli çəkir. Məhz bu yeni istəklər futuroloji forma şəklində "gələcəyin fəlsəfəsi" kimi A.Klarkın təhlilə çəkilən əsərlərində özünü büruzə verir.

***"Şəhər və ulduzlar" romanında ideal cəmiyyət axtarışları"*** adlı III fəslin ikinci paraqrafında qeyd olunur ki, mükəmməl cəmiyyət olan utopiya, mükəmməl insanla əlaqəli bir anlayışdır. Bu anlayışlar A.Klarkın "Şəhər və ulduzları" ("The City and the Stars", 1956) romanının diqqət mərkəzindədir və biz bu fəsildə insanlıq və utopiya ideyalarına necə meydan oxunmasına aydınlıq gətiririk. "Şəhər və ulduzlar" romanında təqdim olunan utopiyada yer üzündə genetik olaraq hazırlanmış insanların bir rolu var, lakin problemlərə yanaşmalarında onlar bir-birindən fərqlənirlər. Adı çəkilən əsər bizə utopiyanın nə qədər arzulanan olmasına baxmayaraq bəşəriyyət üçün necə təhlükəli olmasını üzə çıxarır. Bu onunla bağlıdır ki, utopik əsərlərdə bəşəriyyətin inkişaf potensialı yoxa çıxır, o daha çox eyni prinsip və idarəetmə mexanizmi ilə yaşayır. A.Klark donuq və dəyişməz cəmiyyəti istehza ilə təsvir edir: *"Bu şəhəri quran və onunla birlikdə yaşayan cəmiyyətin üzvləri – insanlar əməlləri ilə yanaşı ağıl sahibi idilər. İnsanlar ehtiyac duyduğu hər şeyi bu divarların içərisinə qoydular və bizi əsla tərk etməyəcəyinə əmin etdilər"*[34].

"Şəhər və ulduzlar" romanında vətəndaşların sağlamlığı, maddi durumu və həyatı harmoniya içində, mükəmməl bir cəmiyyətin təsviri ilə başlayır. Dünyada mükəmməl bir utopiya olmaq istəyi kimi təsvir edilən cəmiyyətlərin varlığı utopiya ideyasının əmələ gəlməsinə səbəb olur. Ədəbiyyatda bütün ədəbi utopiyalar fərqlənsə də, aralarındakı bəzi oxşarlıqlar da yox deyil. Belə əsərlərdə utopiyalar sakinləri üçün əziyyət çəkən sabit və mükəmməl cəmiyyətlərdir. F.Ceymson qeyd edirdi ki, belə mükəmməlliyi yaratmaq üçün bütün pisliklərin kökünü kəsmək lazımdır[35].

A.Klark bütün fəlakətlərin kökünü bəşəriyyətdən uzaqlaşan "Şəhər və ulduzlar" romanındakı iki utopik cəmiyyətdə təsvir edir. Gələcəkdə, milyard il sonra, qalaktik bir imperiya da süqut edəndən çox sonra Yer üzündə yalnız iki cəmiyyət qalır. Bu cəmiyyətlər bir-birindən ayrıdırlar. Yazıçı bizi ilk olaraq Diaspar şəhəri ilə tanış edir. Diasparda sakinlər gen mühəndisliyi və texnologiyası ilə ölümsüz hala gəlir. Bura milyard il əvvəl doğulduğu andan dəyişməyən son

---

[34] Clarke, A.C. The City and the Stars / A.C.Clarke. –Amereon Ltd, – 1999. – p.30

[35] Jameson, F. Progress Versus Utopia: or, Can We Imagine the Future? // Science Fiction Studies, – July 1982. Volume 9, Part 2, №27, – p.12

dərəcə sabit bir cəmiyyətdir. Diaspar sakinləri "sadəcə sabitliyə inanmırlar", əslində onlar *"başqa heç nə təsəvvür edə bilmirlər"*[36]. Diaspar, texnoloji bir möcüzə diyarıdır, vətəndaşları texnologiya sayəsində istədikləri hər şeyi edə bilirlər. Texniki inkişafın ən gözə çarpan nəticələrindən biri də onun işə təsir etməsidir. Gerçək dünyanı nəzərə alsaq, nisbətən kiçik dəyişikliklərə məruz qalan peşələr var. Bu günə qədər hüquq və ya təhsil sahəsində heç bir inqilabi dəyişiklik olmasa da, yalnız, elmi fantastika janrı istisnadır[37]. Sakinlər üçün *"Diaspar mövcud olanların hamısı, ehtiyac duyduğu şeylər, xəyal edə bildikləri hər şey"*[38] idi və onlar mükəmməl şəhərdə yaşamaqdan məmnundurlar. Asudə vaxtın inkişafı müasir sivilizasiyaların mühüm xüsusiyyətidir. Kütləvi istehsal və istehlak ani həzz ehtiyacının yaranmasına kömək edir. Bu, distopiyaların vurğuladığı əhalini idarə etmək üçün daha yaxşı vasitədir, çünki ani duyğular həmişə diqqət mərkəzindədir, xüsusən də yaxşı olanlar. Beləliklə, ani ləzzət vəsvəsəsi də elmi-fantastik və distopik kitabların ümumi xüsusiyyətidir. Bu, mənfi təcrübələri aradan qaldırmaq və unutmaq üçün bir yol kimi fəaliyyət göstərir. İnsanlar arasındakı münasibətlər adi bir məsələ kimi qəbul edilir, ona diqqət yetirilmir. Diaspar vətəndaşları da kor-koranə yalnız texnologiyaya və idraka inanırlar. İki mədəniyyət arasındakı fərq Diasparın daha çox inkişaf etməsidir. Əslində, Diaspar özünün son inkişaf pilləsinə çatır, daha icad ediləcək bir şey qalmır. Ona görə də Diasparın məqsədi sadəcə istehlak və "varlıq"dır. Lakin bu, Diaspar sakinlərinin yaşadıqları dünyaya baxış tərzini dəyişmir. Məsələn, Diasparda təsviri sənət yaradıcılıq baxımdan cəlb etmir, mürəkkəbliyi və dəqiqliyi ilə qiymətləndirilir. İnsanın heyranlıq kimi estetik hissləri texniki qaydalara əməl edən obyektiv gözəlliklə əvəz edilir. Bunun səbəbi, Diaspardakı hər hansı bir əşyanın, maşının və ya şəxsin cəlbedicilik xüsusiyyətinin itirilməsi ilə bağlı ola bilər. Ağılla idarə olunan dünyada idrakın həm də "gözəlliyi" təsvir etmək üçün istifadə

---

[36] Clarke, A.C. The City and the Stars / A.C.Clarke. – Amereon Ltd, – 1999. – p.30
[37] Borne, E. The Social Consequences of Technical Progress // – Paris: UNESCO, International Social Science Bulletin: Social implications of technical change, – 1992. Vol.4, No.2, – p.246
[38] Clarke, A.C. The City and the Stars / A.C.Clarke. – Amereon Ltd. – 1999. – p.9.

edilməsi məntiqlidir: *"O, maddə təşkilatçılarının köməyi ilə o qədər gözəl və mürəkkəblikdə üç ölçülü, bir-birinə qarışan naxışlar dizayn etdi və qurdu ki, onlar topologiyada həqiqətən son dərəcə inkişaf etmiş problemlər idi. Onun işləri bütün Diasparda görünürdü"*[39].

A.Klarkın romanındakı insanlarla bu günün insanı arasında bəzi fərqlər var. Yazıçının gələcəyindəki insanlar bu gündən daha çoxdur, onlar bəşəriyyətin bir çox zəif nöqtələrini, xəstəlikləri aradan qaldırdı, vücudu və zehni kamilləşdirdi və hətta Diaspar sakinlərini gen mühəndisliyi ilə ölümsüz hala gətirdilər. Lis xalqı ən son modifikasiyadan, ölümsüzlükdən imtina etdi, ancaq vücuduna və ağlına edilən digər dəyişiklikləri qorudular. Bəlkə də bugünkü insanlarla Diaspardakı insanlar arasındakı ən böyük fərq Diaspar sakinlərinin kosmos qorxusu və təbiətə maraq göstərməmələridir. Kosmos qorxusu Diaspar insanlarını məhdudlaşdırır, maraqların olmaması onları şəhərdəki norma və şablonlardan uzağa aparmır.

"Şəhər və ulduzlar" romanındakı insanların emosiyaları yoxdur, onlar öz ölümsüzlükləri ilə duyğularını da itirir. Ölkə əhalisi çağırışa cavab vermir, insanlar çətinliklərdən qaçaraq öz insani keyfiyyətini itirir, üzləşdikləri məsələlərdən qorxur, dəyişməyə cəsarət etmirlər. A.Klark texnoloji vasitə ilə insanın irəliləməsini və mükəmməlliyini təşviq edir, eyni zamanda genetik dəyişikliklərdən sonra bəşəriyyətin itkilərinin də qorxulu olduğunu önə çəkir.

A.Klark bəşəriyyətin taleyinin Yer kürəsini başqa planetlərə və günəş sistemlərinə getmək üçün tərk etmək olduğuna və onun yalnız romanlardakı kosmik araşdırmalarla inkişaf edəcəyinə əmin idi. Yazıçı göstərirdi ki, elm bütün problemləri həll edə bilər və "azad dünya" gəncləri elmi texnologiyanı inkişaf eydirəcək. Onun elmə və sosial dəyişikliyə baxışı sosial münasibətlər və ya iqtisadi məsələlər ilə əlaqəli deyildi. Yazıçı gələcəyi "azad gənclik" kimi görürdü.

Əsərin təhlili onu deməyə əsas verir ki, Diaspar əsl utopiya deyil. Onun sakinləri şəhərdəki yaşam qaydalarına uyğun gen dəyişikliyinə məruz qalmışlar. Lis isə romanın əsl utopiyasıdır, həqiqətən də, utopiyanın məzmununu ifadə edir. Amma o da əsl utopiya olmasına baxmayaraq, mükəmməl deyil. A.Klark əsərin qəhrəmanı vasitəsilə bəşəriyyəti düşündürən suallar qaldırır. Amma

---

[39] Clarke, A.C. The City and the Stars / A.C.Clarke. –Amereon Ltd. – 1999. – p.47.

onu da vurğulayır ki, müasir insan yeni uğurlar qazanmalı, bəşəri dəyərlərə və inanılmaz gücə çatmaq üçün ona təkcə utopiya şəraitində yaşamaq kifayət etməməlidir.

Tədqiqatın yekunları **"Nəticə"** hissəsində ümumiləşdirilmişdir.

1. Utopiya janrında yazılan ədəbiyyat dünyanın bədii dərk formalarından fərqliliyi və bir sıra spesifik xüsusiyyətləri ilə seçilir. Utopiya, mövcud dövrə reaksiya olaraq əsaslandığı prinsipləri təcəssüm etmək üçün mükəmməl bir sistem yaratmağı hədəfləyən ideal bir cəmiyyətin obrazıdır. Antiutopiya isə utopik cəmiyyətin inkişafından sonra yaran problemlərdən bəhs edir. Əgər utopiya insanın fərdi xüsusiyyətlərini nəzərə almırsa, antiutopiya şəxsiyyətə belə münasibətin sonda qlobal böhranlara gətirib çıxacağının xəbərdarlığıdır. Distopiya isə utopiyanın əksi, totalitarizmin spesifik xüsusiyyətlərinin birləşdiyi məkandır. Distopiya həmişə özündə ümidsizik elementi daşıyır. Əgər antiutopiyada bəzi çətinliklərə razı olduğu üçün cəmiyyət rifah içində yaşayırsa, distopiyada firavan və rahat həyatdan söhbət getmir, repressiv, lakin sabit və güclü cəmiyyətin real modeli təsvir edilir.

2. İngilis ədəbiyyatında utopiya və distopiya janrının mədəni-tarixi və fəlsəfi-estetik əsaslarının öyrənilməsi onu deməyə əsas verir ki, janrın yaranmasına ilk növbədə yeni dövrün ictimai, siyasi və ideoloji bəlası olan totalitarizm və onun fəsadları təkan vermişdir. XX əsrdə müasir totalitarizmin ardıcıl şəkildə bərqərar olduğu və bütün eybəcərliyini ortaya qoyduğu həm kommunizm, həmdə faşizm bu sahədə müstəsna rol oynadı. Ona görə bu tarixi hadisələr və onu fəsadları antiutopiya janrının ilkin hədəfinə çevrildi.

3. İngilis fantast-yazıçısı A.Klarkın bir futurist kimi irəli sürdüyü fikirlər sabah dünyanın necə görünməsini təxmin etməyə şərait yaradır. Fəslin təhlili onu deməyə əsas verir ki, A.Klark elmin populyarlaşdırılmasında müstəsna xidmət göstərmişdir və onun istənilən əsəri bu sahədə yazılan ən gözəl ədəbi nümunədir.

4. "Uşaqlığın sonu" romanında utopiyanın reprezentasiyası bir daha sübut edir ki, yazıçı utopiyaların təhlükəli vəziyyətlərini tənqid edir, azadlıq və xoşbəxtlik görünüşü altında ideal idarəetmə formasına nail olan, xarici işğallar, kosmos səyahətləri və apokaliptik görüntülər fonunda belə bir quruluşun mövcudluğunu ifşa edir.

5. Yazıçı bəşəriyyəti düşündürən suallar qaldırır və oxucunu düşünməyə səsləyir. Əbədi yaşamaq, amma fərd olaraq yox olmaq, eyni zamanda da sivilizasiya naminə mövcud olmaq kimi suallar qaldırır, utopiyadan antiutopiyaya gedən yolları açır və oxucunu düşündürür.

6. Elmi fantastikanın bir ədəbi janr kimi düşüncə formasına daxil edilməsi onun digər oxşar formalara – utopiya, distopiya və futurologiyaya yaxınlaşması şübhə doğurmur. Bir fantast-yazıçı kimi A.Klark həyatda qazandığı təcrübələrə söykənərək fantaziyalarını uzaq bir reallığa köçürür, mövcud problemlərin həll edildiyini göstərir.

7. A.Klarkın əsərlərində nümayiş edilən nanotexnologiyalar utopik imkanları üzə çıxartdı. Onun əsərlərindəki robot maşınlar möcüzəvi şəkildə müalicə edir, neyrocərrahiyyədə istifadə edilən mini robot skalplar isə inanılmaz möcüzələr yaradır. Beləliklə, A.Klarkın utopiyası gələcəyi dərk etmək üçün rəsmi başlanğıc və mükəmməl ictimai quruluşun əksidir. Ona görə bu tip əsərlər utopiyanı da, futuroloji düşüncəni də aktual etdi.

8. "Şəhər və ulduzlar" romanında ideal cəmiyyət axtarışlarının təhlili onu deməyə əsas verir ki, A.Klark əsərlərində insanlıq və utopiya ideyalarına necə meydan oxunmasına aydınlıq gətirir. "Şəhər və ulduzlar" romanında təqdim olunan utopiyada yer üzündə genetik olaraq hazırlanmış insanların az bir hissəsinin təsviri onu göstərir ki, utopiya nə qədər arzulanan olsa da, bəşəriyyət üçün daima təhlükə olaraq qalır. Bu əsərində A.Klark donuq və dəyişməz cəmiyyətə istehza ilə yanaşaraq oxucuya mühüm mesajlar ötürür.

***Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində əksini tapmışdır:***

1. Artur Klarkın "Uşaqlıq dövrünün sonu" əsərində insan problemi // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2020. №2(114), – s.128-132.
2. A synthesis of the traditions of utopia and dystopia in Arthur C. Clarke's "Childhood's End" // Scientific Collection "InterConf", with the Proceedings of the 2nd International Scientific and Practical Conference "Global and Regional Aspects of Sustainable Development". – Copenhagen, Denmark: Berlitz Forlag, – February 26-28, – 2021, №43, – p.309-312.

3. Reassessing utopia as dystopia in Arthur C.Clarke's Childhood's End // Scientific Collection "InterConf": with the Proceedings of the 9th International Scientific and Practical Conference "Science and Practice: Implementation to Modern Society". – Manchester, Great Britain: Peal Press Ltd. – April 18-19, – 2021, №51, – p.318-326.
4. Ideal society searches in Arthur Clark's novel "City and Stars" // 3rd International Scientific and Practical Internet Conference "Integration of Education, Science and Business in Modern Environment: Summer Debates". – Dnipro, Ukraine, – August 11-12, – 2021, – p.4-6.
5. A.Klarkın romanlarında utopiya və distopiyanın elementləri // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2022. №1(118), – s.332-334.
6. A.Klarkın "Allahın çəkici" romanında utopiya ilə distopiyanın simbiozu // – Bakı: Azərbaycan Dillər Universiteti, Dil və ədəbiyyat, – 2022. XII c., №3, – s.79-83.
7. Artur Klarkın elmi fantastikasında gələcəyin xəbərdarlığı // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2023. №1(121), – s.148-151.
8. Utopiya və distopiyada gələcəyin insanı (Artur Klarkın yaradıcılığı əsasında) // – Bakı: Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi, – 2023. №2, – s.141-146.
9. Gələcəyin intellektual təsviri: A.Klarkın yaradıcılığına bir baxış // – Bakı: Elm və təhsil, AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2023. №8, – s.450-456.
10. Artur Klarkin "Şəhər və ulduzlar" romanında distopiyaya çevrilmiş utopik şəhərlər // ELMİ İŞ Beynəlxalq elmi jurnal, XIII Beynəlxalq elmi qaynaqlar konfransı. – Bakı: – 27.06.2023, №13, – s.28-32.
11. Artur Klarkın yaradıcılığında utopiya və distopiya janrlarının sintezi // ELMİ İŞ Beynəlxalq elmi jurnal, XIV Beynəlxalq elmi araşdırmalar konfransı. – Bakı: – 07.08.2023, №14, – s.32-35.
12. Utopia and dystopia in Arthur Clarke's novel "The city and the stars" // – Poland, Colloquium-journal, Miedzynarodowe czasopismo naukowe. – 2023. №12(171), – p.41-45.

13. Artur Klarkın "Şəhər və ulduzlar" romanında texnologiyanın inkişafının mədəni vəziyyət və ruh halına təsiri // Abbasqulu ağa Bakıxanovun anadan olmasının 230 illik yubileyinə həsr olunmuş "Qloballaşma şəraitində yeni nəsil universitetlərdə müəllim hazırlığının əsas hədəfləri" Respublika Elmi Konfransı. – Quba: ADPU-nun Quba filialı, – 20 dekabr, – 2024, – s.125-126.

Dissertasiyanın müdafiəsi 15 may 2025-ci il tarixində saat 13⁰⁰-da Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 14 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10.04.2025

Kağızın formatı: 60x84 1/16

Həcm: 45701 işarə

Tiraj: 100 nüsxə